"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# Onların əziz xatirəsi qəlbimizdədir



Budur, 2018-ci ilin sonuna saylı günlər qalıb. Bu il ölkəmizin həyatında bir çox beynəlxalq, eləcə də respublika əhəmiyyətli nəhəng layihələrin gerçəkləşməsi ilə tarixdə qalacaq. Yola salacağımız 2018-ci ildə, eyni zamanda, Şərqdə ilk müstəqil dövlətin qurulmasının 100 yaşı tamam oldu. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə bu il "Cümhuriyyət ili" elan olundu.

1918-ci ildən - Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından 100 il keçir. 70 ildən çox Sovet rejimində yaşamağa məhkum edilmiş xalqımız yalnız müstəqillik qazandıqdan sonra tarixinin şərəfli səhifələrini vərəqləməyə müvəffəq oldu. 1991-ci ildə dövlətimiz müstəqilliyini bərpa etdikdən sonra AXC, onun qurucuları, onların fəaliyyəti haqqında məlumatlar, tarixi faktlar, arxiv sənədləri üzə çıxarılmağa başladı. Arxivlərin qaranlıq küncündə illərdən bəri ört-basdır edilən gizli materiallar, nəhayət ki, işıq üzü gördü. Və biz gərgin və ziddiyyətli bir dövrdə dövlət quruculuğuna nail olmuş böyük ziyalılarımızı, görkəmli dövlət xadimlərimizi tanımağa başladıq.

Onlar həm ölkə daxilində olan, həm də xaricdən gələn təhlükələrlə qarşılaşaraq, böyük cəsarət, fədakarlıq tələb edən çox "ilklər"ə imza atdılar: ilk hökumət, ilk parlament yaratdılar, müstəqil dövlət qurdular, Cümhuriyyətin 23 aylıq fəaliyyəti dövründə ölkənin ərazi bütövlüyü uğrunda mübarizə apardılar, müstəqil dövlətin ilk Milli Ordusunu təşkil etdilər.

1918-ci il mayın 28-də Milli Şuranın tarixi iclasında Azərbaycanın İstiqlal bəyannaməsi qəbul edildi. Azərbaycan istiqlal mübarizəsinin ən dəyərli sənədi olan bu bəyannamə türk-müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda parlamentli respublika yaradılmasını əks etdirirdi. Azərbaycan parlamenti keçirdiyi 145 iclasda müstəqilliyi qoruyub saxlamaq, insan hüquq və azadlıqlarını özündə əks etdirən ən müasir hüquqi dövlət qurmaq məqsədi daşıyan 200 dən artıq qanun və qərarlar qəbul etdi. Olduqca mürəkkəb və təhlükəli daxili və beynəlxalq şəraitdə fəaliyyət göstərən AXC ölkənin xarici siyasətində, ictimai-siyasi, sosial-iqtisadi, mədəni-maarifçilik həyatında fəal işlər gördü. Bir çox xarici ölkələrdə diplomatik nümayəndəliklər açıldı. AXC yaradıcıları tez bir zamanda Azərbaycanın beynəlxalq aləmdə tanınmasına müvəffəq oldular, gənc müstəqil ölkəni mötəbər siyasi tədbirlərdə təmsil etdilər. Böyük təzyiqlər altında 1919-cu ildə Paris Sülh konfransında AXC-nın de-fakto tanınmasına nail oldular. Cümhuriyyət dövründə Azərbaycan dili dövlət dili elan edildi, müstəqil dövlətin rəmzləri təsis edildi, üçrəngli bayrağı dalğalandı, dövlət gerbi təsdiqləndi, istiqlal marşı səsləndirildi.

Lakin 11-ci Qırmızı ordunun 1920-ci il Aprel işğalı Cümhuriyyət yaradanların böyük arzularını puç etdi, demokratik dövlət quruculuğu uğrunda gördüyü mütərəqqi işlərini yarımçıq qoydu. Görkəmli ziyalıları, nüfuzlu ictimai-siyasi xadimləri ölkədə yeni hökumət tərəfindən amansız təqiblər, işgəncələr gözləyirdi, bəziləri isə xüsusi təhlükə hesab edilərək, xain düşmən gülləsinə tuş gəldilər. Həmin vaxtlarda xarici ölkələrdə olan dövlət və ictimai xadimlərin bir qismi artıq vətənə geri dönə bilmədilər və siyasi mühacir həyatı yaşamağa məhkum oldular. Lakin onlar azadlıq, istiqlal mücadiləsini bir an belə dayandırmadılar. Vətəndən uzaqlarda, mühacirətdə olsalar da, qəlbləri vətənə dönmək həsrətilə döyündü, haqq işlərinə, istiqlalın bərpa olunacağına, Sovet rejiminin əsarəti altında yaşamağın uzun sürməyəcəyinə inanaraq mübarizələrini, fəaliyyətlərini davam etdirdilər.

Sovet hakimiyyəti illərində adlarının belə çəkilməsi yasaq edilən xalqın ziyalıları, dövlət xadimləri, ictimai-siyasi simaları haqqında məlumatları yalnız müstəqilliyimiz bərpa edildikdən sonra əldə edə bilmişik, indi onların hər birinin gördüyü işlər barədə dolğun təsəvvürümüz var. Hər biri yüksək ziyalı, müxtəlif ölkələrin nüfuzlu təhsil ocaqlarında ali təhsil almış, bir neçə xarici dilə mükəmməl yiyələnmiş, dövrünün görkəmli şəxsiyyətləri, mütərəqqi, maarifçi insanlar idilər. Xalqının gələcəyini firavan, müstəqil, azad, savadlı görmək idi amalları...

Bu ötən illər ərzində onların fəaliyyəti haqda yeni mənbələr, sənədlər aşkar edildi, daha neçə-neçə yeni faktlar üzə çıxarıldı, Cümhuriyyət qurucularının bu xalqa göstərdiyi misilsiz xidmət öz tarixi qiymətini aldı.

Ümummilli liderimiz Heydər Əliyevin dediyi: "Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay ərzində fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, onun qısa müddət ərzində həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz izlər buraxmış, milli dövlətçilik ənənələrimizin bərpası işində böyük rol oynamışdır", - sözləri AXC-nin fəaliyyətinə verilən ən yüksək qiymətdir.

2018-ci ilin Azərbaycan Prezident İlham Əliyev tərəfindən "Cümhuriyyət ili" elan edilməsi bütövlükdə hamının və hər bir vətəndaşın qarşısında bir vəzifə, Cümhuriyyət qurucularının xatirəsi önündə mənəvi borc qoydu.

2018-ci il mayın 28-də Cümhuriyyətin 100 yaşı böyük təntənə ilə qeyd edildi. İyunun 26-da Milli Ordumuzun yaradılmasının 100 illiyi münasibətilə möhtəşəm parad keçirildi. Sentyabrın 15-də hər bir Bakı sakini Qafqaz İslam Ordusunun Bakı şəhərinin işğaldan azad olunmasının 100-cü ildönümü şərəfinə təşkil edilmiş zəfər yürüşünün şahidi oldu. 2018-ci ildə həm ölkəmizdə, həm də dünyanın bir çox ölkələrində yüksək səviyyədə yubiley tədbirləri keçirildi.

Biz bir daha Cümhuriyyətin bizə miras qoyub getdiyi tariximizi və hüquqi dövlətçilik ənənələrimizi yaşatmalı, inkişaf etdirməliyik. Möhtərəm Prezident İlham Əliyevin AXC-nin 100 illiyinə həsr olunmuş tədbirdə dediyi kimi:

**"Bu gün hansı sahəyə baxsan, inkişaf var, tərəqqi var və gələcək dinamik inkişaf üçün aydın baxışlar var. Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər.**

**Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də, belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir".**

*P.S. Biz də "Cümhuriyyət ili" ərzində Azərbaycan Xalq Cümhuriyyətinin qurucularını böyük ehtiramla dönə-dönə yad etdik, onların apardığı istiqlal mübarizəsi haqqında oxuduq, öyrəndik və daha çox maraq doğuran, xüsusi əhəmiyyət kəsb edən məqamları qəzetimizin səhifələrində bir daha sizlərlə - dəyərli oxucularımızla bölüşmək istədik.*

**Aytən SƏMƏDZADƏ**